İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

*parlaq imzalar*

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# XƏSTƏXANADA GÖRÜŞ

(elmi-fəlsəfi povest)

AMİNƏ SƏDR
(BİNTÜL-HÜDA)

Ərəb dilindən tərcümə:

Natəvan Nəsirova

parlaq
İMZALAR

| | |
|---|---|
| Elmi redaktor: | Emin İMANLI |
| Redaktorlar: | Dilman ŞAHMƏRDANLI<br>Eldar ŞAHMƏRDANLI *(filoloq)* |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | İsmayıl SÜLEYMANLI |
| Cildin dizayneri: | Naib ALLAHVERDİYEV |

**Aminə Sədr (Bintül-hüda)**
**XƏSTƏXANADA GÖRÜŞ**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2014, 128 səh.

**© Aminə Sədr / 1980**
**© Parlaq İmzalar MMC / 2014**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

ISBN 978-9952-8236-6-0

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
2014

# Ön Söz

"Bintül-hüda" (hidayət qızı) kimi tanınan iraqlı yazıçı, siyasi və ictimai xadim Aminə əs-Sədr 1937-ci ildə Bağdadın Kazimiyyə məntəqəsində anadan olub. Atası Heydər əs-Sədr vəfat edəndə onun iki yaşı vardı. Atasının ölümündən sonra maddi çətinliklə üzləşən ailəsi 1945-ci ildə Nəcəf şəhərinə köçür. O, uşaq yaşlarından təhsilə və elmə maraq göstərir, bu şövqlə boya-başa çatır. Nəcəf şəhərində anasından oxumaq və yazmağı öyrənir. On bir yaşında qardaşları Seyid İsmayıl ilə Məhəmmədbaqir əs-Sədrdən təhsil almağa başlayır. Öz elmi mütaliələrini davam etdirən Aminə əs-Sədr görkəmli müsəlman publisist və ziyalı qadın kimi yetişir. Bu sahədə onu, xüsusən görkəmli filosof, iqtisadçı və siyasi ideoloq olan qardaşı Məhəmmədbaqir əs-Sədr (1935-1980) istiqamətləndirir.

Bintül-hüda şəxsiyyətinin ən bariz cəhətini, şübhəsiz, ədəbiyyat və maarifçilik təşkil edir. Fitri istedada malik olan Aminə on üç yaşından şeir yazmağa başlayır. İlk gənclik illərindən öz məqalələri ilə tanınır. O, iyirmi yaşına qədəm qoyanda artıq qadınla bağlı düşüncələrdə böyük dəyişikliklərə nail olmuşdu. Bu illərdə o, Nəcəfdə nəşr olunan əl-Adva (1959) jurnalına məqalələr yazır. Öz məqalələrində qərbpərəstliyə və feminizmə qarşı çıxır, İslamın qadına daha böyük status verdiyini vurğulayır. Elmi və qələmi ilə İraq qadınlarının maariflənməsi yolunda yeni bir fəaliyyətə yol açan Aminə əs-Sədr onların ideoloji liderinə çevrilir. Bağdad və Kazimiyendə qızlar üçün müxtəlif təhsil ocaqları təsis edir. Bu təhsil müəssisələrinin idarəçiliyində yer tutaraq müsəlman qızların savadlanmasında bö-

yük rol oynayır. Məktəb, xəstəxana və xeyriyyə cəmiyyətlərinin açılmasına təşəbbüs göstərir. Onun maarifpərvər addımları qadınların intellektual səviyyəsinin inkişafına, cəmiyyətin qadına, qadınların da İslama baxışının dəyişməsinə səbəb olur. O öz ölkəsində İslamla bağlı təhriflərin aradan qaldırılmasında təsirli rol oynayır. O deyirdi: "Bu nəslin xidmətində olmağı və bir nəsli tərbiyə etməyi daha üstün tuturam". Desək ki, ötən əsr İraq qadınının dirçəlişinin əsasında bu qadının fəaliyyətləri dayanır, bəlkə də, yanılmarıq.

Aminə əs-Sədr elmi-publisist fəaliyyətlə yanaşı, siyasi və sosial sahələrdə də aktiv idi. O öz ömrünü qardaşı Məhəmmədbaqir əs-Sədrin ömrünə calaq etmiş və öz həyatını qardaşının diktatorluqla mübarizə həyatının bir parçası hesab edirdi. O, qardaşı ilə birlikdə İraqın siyasi həyatında iştirak edərək Səddam Hüseyn (1937-2006) rejiminə qarşı mübarizə aparır. Məhəmmədbaqir əs-Sədr BƏƏS rejimi tərəfindən həbs edildikdən sonra bacısı Aminənin rejim əleyhinə başlatdığı mübarizə nəticəsində xalq ayağa qalxır və etiraz dalğasının güclənməsi nəticəsində rejim onu həbsdən azad edir. Lakin çox keçmir ki, bacı-qardaş öz şərəfli ömür yollarını da hər ikisi eyni gündə başa vururlar; 1980-ci ildə Aminə əs-Sədr qardaşı ilə birlikdə həbs edilir və 8-9 aprel tarixində Səddam Hüseyn tərəfindən güllələnərək faciəli şəkildə qətlə yetirilirlər.

Aminə əs-Sədr cəmi 43 il ömür sürsə də, bu qısa ömründə ədəbi və maarifçi fəaliyyətləri ilə müsəlman qadınına böyük töhfələr verir. Öz hekayə, roman və povestləri, o cümlədən tarixi romanların tərcüməsi ilə müsəlman qadınının yoluna yeni işıq saçır. Müsəlman dünyasının az tədqiq olunan şəxsiyyətlərindən olan Aminə əs-Sədr öz əsərlərində İslam ümmətinə qarşı yönələn ittihamları cavablandırır. Onun kitablarında İslam dininin prinsipləri, müsəlman ictimai və mənəvi dəyərlərinin təsviri, Qərbin ifrat azadlıq məfhumunun tənqidi və insan təbiətinin İslam nöqteyi-nəzərindən təhlili öz əksini tapır. Geniş oxucu kütləsi arasında yayılan bu əsərlər sadə və cəlbedici üslubda yazılsa da, dərin elmi-fəlsəfi məzmunu əhatə edir.

Maraqlısı budur ki, Aminə əs-Sədr bütün bu keyfiyyətlərə heç bir akademik təhsili olmadığı halda nail olur. Misirli yazıçı və ədəbiyyat üzrə professor xanım Bintüş-şati (1913-1998) Aminə əs-Sədrlə görüş zamanı onun yaradıcılığı və düşüncələri ilə yaxından tanış olduqdan sonra soruşur: "Siz hansı universitetin məzunusunuz?" Aminə: "Mən ev universitetinin məzunuyam", – deyə cavab verir.

Bu günədək təqribən ondan artıq əsəri çap olunmuş yazıçının sizə təqdim edilən "Xəstəxanada görüş" povestində o, cəmiyyətin və ümmətin möhtəşəm ilahi konsepsiya vasitəsilə ali insani dəyərlərə yiyələnməsinin necəliyi barədə düşünür və yazır. Povestdə bir çox elmi-fəlsəfi problemlərə anlaşıqlı və səlis üslubda aydınlıq gətirilir; silsiləvi dialoq şəklində materialist fəlsəfi məktəblərinin irəli sürdüyü prinsiplər müzakirə edilərək bu baxışların yetərsizliyi, insanı ali dəyərlərə çatdırmaq potensialına malik olmadığı sübuta yetirilir. Kitab öz orijinallıq, dərinlik və mənəvi dəyərlərin önə çəkilməsi ilə diqqət çəkir.

Ümid edirik ki, müsəlman dünyasında parlaq imza sahibi olan Bintül-hüda bu və nəşr edəcəyimiz digər əsərləri ilə dəyərli oxucuların marağına səbəb olacaq və az da olsa, düşüncələrdə öz müsbət təsirini buraxacaq.

*Parlaq İmzalar*

Telefon zəng çaldı. Doktor Aminə yuxulu-yuxulu yatağında o yan-bu yana çevrildi. Bilmirdi yatsın, yoxsa telefona cavab versin. Telefon hələ də zəng çalırdı və o, yarıayıq və yarıyuxulu vəziyyətdə tərəddüd edirdi. Axır ki, özünə gəldi və hiss etdi ki, oyanmalıdır. Telefona tərəf gedə-gedə saatına baxdı. Saat gecə biri göstərirdi. Deməli, heç bir şübhə yox idi ki, xəstənin vəziyyəti çox ağırdır və təcili olaraq onun yanına getmək lazımdır.

Dəstəyi götürdü. Doğrudan da, elə idi. Bir xəstənin vəziyyəti ağır idi. Həkimi səkkizinci mərtəbəyə çağırırdılar. O, vaxt itirmədən geyinib otaqdan çıxdı. Müayinə otağına çatdıqda, oradan çıxan tibb bacısından xəstənin vəziyyətini soruşdu. Tibb bacısı dedi:

– Xəstə, sinəsindəki güclü ağrılardan şikayət edən qoca bir qadındır.

Doktor sürətlə otağa daxil oldu. Nigaran görünən gözəl, cavan, incə və örpəkli bir qız doktor Aminəyə tərəf bir neçə addım atdı. Deyəsən, doktor Aminənin ondan xoşu gəldi, mehribanlıqla ona əl verib görüşdü və dedi:

– Allah kömək olsun!

Cavan qız dedi:

– Doktor! Bu mənim nənəmdir. Bir neçə saatdır ki, vəziyyəti çox pisdir və güclü ağrıları var. Hətta bir neçə dəqiqəlik huşunu itirmişdi. – Bunu deyib doktorla birgə nənəsinə tərəf addımladı.

Nənə rəngi-ruhu qaçmış vəziyyətdə müayinə stolunun üstündə uzanmışdı və hələ də ağrıdan inildəyirdi. Həkim cəld müayinəyə başladı və eyni zamanda bir tibb bacısını da köməyə çağırdı. O, böyük səylə işini görürdü və xəstəyə çox qayğı ilə yanaşırdı.

Cavan qız gözləmə otağında həyəcanla o baş-bu başa var-gəl edirdi. O, çox iztirablı görünürdü. Nəhayət, müayinə başa çatdı. Məlum oldu ki, qoca infarkt keçirib, buna görə də bir müddət xəstəxanada qalmalıdır. Həkimin göstərişi ilə onu başqa bir boş palataya köçürdülər və orada doktor xəstəyə bir sakitləşdirici dərman verdi ki, yuxuya getsin.

Həkim bayaqdan xəstəyə qulluq etdiyinə görə, cavan qızla nənəsi haqqında söhbət etməyə imkan tapmamışdı. Amma işini bitirdikdən sonra nənəsinin yatağının yanında dayanmış və çox pərişan halda olan cavan qızı gördü. Onun kirpikləri ağlamaqdan islanmışdı. Yaşla dolmuş gözləri isə buludlar arxasından parıldayan bir cüt ulduza bənzəyirdi. Həkim hiss etdi ki, qızı sakitləşdirmək üçün onunla bir neçə kəlmə söhbət etməlidir. Gülümsəyib dedi:

– Ümidvaram ki, ciddi bir şey olmaz, çünki lazım olan köməyi ona vaxtında etmişəm.

Cavan qız dedi:

– Nənəm üçün çəkdiyiniz zəhmətə görə sizə minnətdaram.

Həkim isə cavabında:

– Mən hər xəstə üçün bu işi görürəm. – dedi.

O hiss etdi ki, qızın rəngi qaçıb. Əlindən tutduqda gördü ki, əlləri buz kimidir. Mehribanlıqla ona dedi:

– Hiss edirəm, çətin anlar yaşamısınız, niyə bir az yatıb istirahət etmirsiniz? Cavan qız isə dedi:

– Düzdür, yorğunam, amma nənəmi necə tək qoyum?

Həkim soruşdu:

– Sizin bacınız yoxdur?

Cavan qız qısa sükutdan sonra dedi:

– Onun məndən başqa qızı, mənim isə ondan başqa anam yoxdur. – Bunu dedi və göz yaşları leysan tək axdı. Bu hal onu, elə bil ki, daha da gözəlləşdirdi. Həkimin ona ürəyi yandı, onun əlini mehribanlıqla sıxa-sıxa dedi:

– Mən sizin yerinizə nənənizin yanında qalıb ona baxaram.

Cavan qız dedi:

– Bu, düzgün olmaz, siz, gərək, yatasınız. Əlinizdən gələni artıq etmisiniz.

Həkim gülümsəyərək dedi:

– Mən belə şeylərə öyrəşmişəm və bu mənim üçün elə də çətin deyil. Gecənin əvvəlində iki saat yatmışam. Ona görə də yatmaq sizin üçün daha vacibdir. Amma bir az

gözlə, mən indicə qayıdıram. – Bunu dedi və cavabı gözləmədən otaqdan çıxdı.

O getdikdən sonra, qız hiss etdi ki, həkim məsuliyyətli insandır və ona güvənmək olar. Həkim əlində bir kitabla geri döndü və cavan qıza dedi:

– Əzizim! Çalış, yatasan. Mən də vaxtımı bu kitabı oxumaqla keçirəcəyəm. Arxayın ol, nənənə yaxşıca qulluq edəcəyəm, xanım!... – O, qıza adı ilə müraciət etmək istəyirdi. Ancaq onun adını bilmədiyinə görə susdu. Cavan qız tez dilləndi:

– Nəfisə, adım Nəfisədir.

Doktor da:

– Mənim də adım Aminədi. İndi isə ikinci çarpayıya uzan və bir az istirahət et. – dedi.

Nəfisə çarəsiz həkimin sözünə əməl etdi və çox yorğun olduğundan, onu tez yuxu apardı.

Ayıldıqda başa düşdü ki, bir saatdan çox yatıb və Aminə hələ də nənəsinin yanında oturub kitab oxuyur. Nənəsi də oksigen balışı ilə nəfəs aldığına görə rahat yatır. Nəfisə yataqdan qalxıb Aminəyə tərəf getdi, qəmgin və titrək səslə ona salam verib, nənəsinin vəziyyətini soruşdu. Aminə onu arxayınlaşdırıb kitabı stolun üstünə qoydu, ayağa qalxaraq dedi:

– Gedim sübh namazına hazırlaşım, sonra isə rəsmi iş saatına kimi bir az yatmağa çalışacağam. İnşallah, sabah sənə və nənənə baş çəkərəm.

Nəfisə təşəkkür etdi və doktor Aminənin əlini məhəbbətlə sıxaraq dedi:

– Doktor! Bilmirəm, sizə necə təşəkkür edim. Mənə çox böyük qayğı göstərdiniz, tənhalıqda, əzab və nigaranlığa tab gətirməkdə kömək oldunuz.

Aminə dedi:

– Ay Nəfisə, madam ki, Allah səninlədir, tək deyilsən. Görürəm, başını bağlamısan, imanlı qıza oxşayırsan. İman həyatın bütün mərhələlərində insanı güclü edir.

Nəfisə minnətdarlıqla həkimi qapıya kimi ötürdü. Sonra yenidən nənəsinin yanına qayıtdı və Aminənin oturduğu yerdə əyləşmək istədikdə, gözü, həkimin yaddan çıxarıb orada qoyduğu kitaba sataşdı. Kitabın adını oxuduqda, diqqətini cəlb etdi, çünki adı ona qəribə gəldi: "Tibb – iman üçün bir mehrab". Təəccüblə özü-özündən soruşdu: "Qəribədir! Görəsən, bu ifadənin mənası nədir? Tibbin imanla nə əlaqəsi var? Məgər tibb – bədəni sağaltmaq üçün bir elm deyilmi? Halbuki din – cəhənnəm alovundan nicat tapmaq üçün edilən ibadətdir. Bəs tibb iman üçün necə bir mehrab ola bilər?"

Marağı o qədər çox idi ki, dözməyib kitabı vərəqlədi. Diqqətlə kitabın üz qabığına baxdı – insan beyninin təsviri çəkilmişdi. Şəklin altında aşağıdakı mübarək ayə yazılmışdı: *"Bu gördükləriniz Allahın yaratdıqlarıdır. İndi siz mənə Allahdan başqalarının nə yaratdıqlarını göstərin". (Loğman/11)*

O, kitabı vərəqləyir, bəzi yerləri oxuyub fikrə dalırdı. Bir müddətdən sonra sübh namazını qılmaq və nənəsinə lazım olan işləri görmək üçün kitabı qırağa qoydu və işlərini bitirdikdən sonra yenidən oxumağa davam etdi.

* * *

Hava yavaş-yavaş işıqlandı və səhər açıldı. Xəstənin dərmanını verən tibb bacısı otağa gəldi və dərmanı verib otaqdan çıxdı. Bir müddətdən sonra mütəxəssis həkim bir qadın həkimlə otağa daxil oldu. O, qısa müayinədən sonra Nəfisəni arxayın etmək üçün bir neçə söz deyib, otaqdan çıxdı. Gəzəndə ayaqlarını bərk-bərk yerə vuran qadın həkim də otağı tərk etdi. O, sanki, ayaqqabılarının dabanından çıxan səslə öz yerişini tənzimləyirdi. Bir neçə saniyə keçməmişdi ki, həmin həkim geri qayıtdı və Nəfisəyə təkidlə tapşırdı ki, xəstəni hərəkət etməyə qoymasın. Sanki, bu qısa kəlmələr onun üzünün cizgilərini yaxından seçmək üçün Nəfisəyə imkan yaratdı. O gördü ki, onun üzü, çoxlu rənglərdən istifadə olunmuş bir rəsm tablosuna bənzəyir. Nəfisə iki sima arasında olan fərqi tez hiss etdi: biri, saxtalıq və ögeyliyi xatırladan bu doktor xanımın üzü, digəri, doktor Aminənin səmimiliyini və imanlı insan olmasını yada salan siması. Burada Nəfisə hiss etdi ki, Aminəni görmək üçün səbirsizləşir. Ondan ürək isidici və sakitləşdirici sözlər eşitmək, kitabdakı bəzi şeylər haqqında soruşmaq istəyirdi. Saatına baxıb öz-özünə dedi: "Qəribədir! Görən, niyə gecikib?"

Nənəsinin yanına qayıtdı. Nənəsi ayıq idi və dincəlmiş görünürdü. Nəfisə sevincək onunla üzbəüz oturaraq dedi:

– Nənə can! Yaxşılaşmağına çox sevindim. Kaş biləydin, sənin üçün necə nigaran idim! Dünən halın çox pis idi.

Nənəsi kədərli halda cavab verdi:

– Bəli, əzizim, nigaranlığının səbəbini başa düşürəm, xüsusən ona görə ki, sən tənhasan!

Nəfisə dedi:

– Amma mən Aminə həkimin yanında özümü tənha hiss etmədim. Çünki o, çox mehribandır. Hətta mənim yatmağıma israr etdi və özü bir saatdan çox ayıq qalıb sənə nəzarət etdi.

Nənə gülümsəyib dedi:

– Allaha çox şükür ki, bu çətinlikdə onu sənə həmdəm göndərib. Nəfisə nənəsindən sakit olmağı, danışıb özünü yormamağı xahiş etdi və yenidən kitabı oxumağa başladı. Vaxtaşırı saata baxaraq intizarla Aminənin gəlişini gözləyirdi.

Günorta oldu və Nəfisə namazını qıldı. Amma, sanki, nəyisə itirdiyini hiss edirdi. Bu hiss ona çox qəribə gəlirdi. Öz-özünə dedi: "Niyə Aminəni bu qədər görmək istəyirəm, halbuki onu görmədiyim cəmi bir neçə saatdır?! O, ancaq xəstə qarşısında olan borcunu yerini yetirdi, vəssalam. Bəlkə də, onu daha heç vaxt görməyəcəm".

Bu zaman Nəfisənin içindən gələn səs qətiyyətlə cavab verdi: "Bu həvəs və intizar yersiz deyil. O sənə çox mehribanlıq edib, sənə yalnız bir həkim kimi yox, kamil bir insan kimi yanaşıb. Əgər onun qayğısı olmasaydı, tənhalığa və çoxlu çətinliklərə dözməli olacaqdın".

Bu zaman qapı yavaşca döyüldü. Nəfisə fikirlərindən ayrılıb özünə gəldi. Ayağa qalxdı ki, görsün, kimdir. Görəndə ki, doktor Aminə otağa daxil olur, çox sevindi. "Xoşgəldin" demək üçün ona tərəf getdi. Görünürdü ki, Aminə də Nəfisə qədər sevinir.